

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 171 (23.333)

13 sentyabr 2019-cu il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Bakının Suraxanı rayonundakı 101 nömrəli orta məktəbdə aparılan təmir-tikinti və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub.

Görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat verilərək bildirilib ki, Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramına əsasən bu ilin may ayında təhsil ocağının 1937-ci ildə istifadəyə verilən binası sökülərək yerində 360 yerlik 15 sinif otağından ibarət əlavə korpusunun tikintisinə başlanılıb. İnşaat işləri yüksək səviyyədə həyata keçirilib. Bundan sonra məktəbdə birnövbəli sistemdə 985 şagird təhsil alacaq. Şagirdlərin təlim-tərbiyəsi ilə 62 müəllim məşğul olur.

* * *

Bakı Metropoliteninin "Xətai" stansiyası əsaslı təmir və yenidənqurmadan sonra sentyabrın 12-də istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev stansiyada görülən işlərlə tanış olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Avropa Şurası Parlament Assambleyasının (AŞPA) prezidenti xanım Lilian Mori Paskieni qəbul edib.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Sentyabrın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İsveçrə Konfederasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Muriel Peneveyre ilə görüşmüşdür.

Ali Məclisin Sədri qonağı salamlamış, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İsveçrə Konfederasiyası arasındakı əlaqələrə diqqəti çəkmişdir. Birgə əməkdaşlığın nəticəsi kimi muxtar respublikada kəhrizlərin bərpası layihəsindən danışan Ali Məclisin Sədri 2011-ci ildə İsveçrə Konfederasiyasının o zamankı Prezidenti xanım Mişelin Kalmi-Reyin Naxçıvana səfərini xatırlatmışdır.

İsveçrə şirkəti tərəfindən Naxçıvanda Günəş Elektrik Stansiyasının qurulduğunu, eləcə də bir sıra beynəlxalq tədbirlərin keçirildiyini qeyd edən Ali Məclisin Sədri əminliyini bildirmişdir ki, xanım Muriel Peneveyrenin səfəri də əməkdaşlığın genişləndirilməsinə töhfə verəcəkdir.

Diplomatik fəaliyyəti müddətində ilk rəsmi səfərini Naxçıvan Muxtar Respublikasına etdiyini bildirən xanım Muriel Peneveyre göstərilən diqqətə görə minnətdarlıq etmişdir. Səfir qarşılıqlı əlaqələrin əhəmiyyətinə toxunmuş, əməkdaşlığın daha da genişləndirilməsində səylərin artırılacağını bildirmişdir.

İsveçrə Əməkdaşlıq Ofisinin Cənubi Qafqaz üzrə regional direktor müavini xanım Simon Hayberli görüşdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı CORLEAP-ın həmsədri seçilib

***Sentyabrın 12-də Finlandiyanın Turku şəhərində Şərq Tərəfdaşlığının Regional və Yerli Hakimiyyətinin Konfransının – CORLEAP-ın 9-cu illik yığıncağı keçirilib.***




İllik yığıncağın işində Avropa İttifaqının Regionlar Komitəsinin prezidenti Karl Hayns Lamberts, Finlandiya Xarici İşlər Nazirliyinin Daimi Dövlət katibi, səfir Martın Anttonen, Cənub-Qərb Finlandiya Şurasının İdarə Heyətinin sədri İlkka Kanerva, Avropa İttifaqının Şərq Tərəfdaşlığı üzrə direktoru Lourens Meredit, Avropa Şurasının Yerli və Regional Hakimiyyətləri Konqresinin prezidenti Andreas Knape, Finlandiya parlamentinin deputatları və bir sıra digər şəxslər çıxış edərək yığıncaqda qurumun illik fəaliyyət istiqamətləri üzrə işlərə qiymət vermiş və gələcək perspektivlər müzakirə olunmuşdur. Yığıncaqda, həmçinin CORLEAP-ın iki tematik sənədi: – "Yerli və regional hakimiyyət orqanlarının potensialının artırılması" və "Transsərhəd proqramları çərçivəsində fərdlər arasında əlaqələrə yardım" adlı siyasi məruzələri üzərində müzakirələr aparılaraq müvafiq tövsiyələr qəbul olunmuşdur. Yığıncaqda, eləcə də "Şərq Tərəfdaşlığının gələcəyinin formalaşdırılmasında yerli və regional hakimiyyətlərin rolu"na dair dinləmələrdə diplomatların, vətəndaş cəmiyyətinin təmsilçilərinin, eləcə də Avropa İttifaqının Xarici Əlaqələr Xidmətinin nümayəndələrinin iştirakı ilə müzakirələr aparılmışdır.

CORLEAP-ın illik yığıncağında ölkəmizi təmsil edən nümayəndə heyətinin üzvləri – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov və digərləri müzakirə olunan məsələlərə dair çıxış etmiş, ölkəmizdə yerli və regional hakimiyyətlərin potensialının artırılması, regionların inkişafı istiqamətində görülən işlər və aparılan siyasət, onların nəticələri barədə tədbir iştirakçılarını məlumatlandırmışlar.

Qurum çərçivəsində, həmçinin Şərq Tərəfdaşlığının tematik platformalarına uyğun olaraq məruzəçi təyin olunmuşdur. Qərara alınmışdır ki, Azərbaycan nümayəndəsi Anar İbrahimov "Şərq tərəfdaşlığı ölkələrində fiskal əksmərkəzləşdirmə siyasəti və yerli və regional hakimiyyətlərinin maliyyə muxtariyyəti" sahəsində məruzəçi təyin edilsin.

Yığıncaqda əlavə olaraq CORLEAP-ın yenilənmiş reqlamenti səsə qoyularaq qəbul edilmişdir.

Qurumun 9-cu illik yığıncağında Azərbaycan nümayəndə heyətinin rəhbəri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov CORLEAP-ın həmsədri vəzifəsinə seçilmişdir. Digər həmsədr isə hazırkı Avropa İttifaqının Regionlar Komitəsinin prezidenti, Belçikalı senator Karl-Hayns Lamberts müəyyən edilmişdir.

CORLEAP 2011-ci ildə Polşanın Poznan şəhərində təsis edilib. Avropa İttifaqı – "Şərq Tərəfdaşlığı" platformasının regional və yerli hakimiyyətləri üçün institut kimi fəaliyyət göstərən strukturdur. Yəni CORLEAP regional və yerli səviyyədə Şərq Tərəfdaşlığının platformasıdır. Quruma Avropa İttifaqının üzvü olan 28 dövlət və 6 Şərq tərəfdaşı daxildir. Şərq tərəfdaşı olan ölkələr Azərbaycan, Ukrayna, Moldova, Ermənistan, Gürcüstan və Belarusdur.

**Nuhcixan.az**

***Sentyabrın 12-də İsveçrə Konfederasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri xanım Muriel Peneveyre Naxçıvan Muxtar Respublikasına səfərə gəlib.***

## Muriel Peneveyre Naxçıvanın sənaye və istehsalat müəssisələri ilə tanış olub




Qonaq əvvəlcə ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, Heydər Əliyev Muzeyində ümummilli liderin həyat və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxıb.

Naxçıvan Biznes Mərkəzinə gələn səfirə məlumat verilib ki, mərkəzin sərgi salonunda 94 müəssisənin 196 növdə və 1232 çeşiddə məhsulu, 65 ailə təsərrüfatında istehsal olunan 20 növdə 157 çeşiddə məhsul, 80 sənətkar tərəfindən hazırlanan əl işləri, rəsm əsərləri, xalçalar və Naxçıvan Muxtar Respublikasının istehsal müəssisələrinin xəritəsi nümayiş olunur. Vurğulanıb ki, hazırda muxtar respublikada 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir.

Sonra xanım diplomat Naxçıvan şəhərində bərpa olunan "Qələndər" kəhrizinə baxıb. Burada məlumat verilib ki, kəhriz İsveçrə İnkişaf və Əməkdaşlıq Təşkilatı tərəfindən 2009-cu ildə bərpa edilib. Üç quyudan ibarət bu kəhriz əhalinin və təsərrüfatların suya tələbatının ödənilməsində mühüm rol oynayır.

Naxçıvan Avtomobil Zavodunun istehsal potensialı ilə maraqlanan qonağa bildirilib ki, burada istehsal prosesi konveyer üsulu ilə təşkil edilib. Hazırda zavodda 17 modeldə minik və yük avtomobilləri istehsal olunur.

"Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə tanışlıq zamanı məlumat verilib ki, 2004-cü ildə özəlləşdirilən müəssisədə daha keyfiyyətli məhsul istehsalına başlanılıb, Badamlı mineral suyunun əvvəlki şöhrəti özünə qaytarılıb. Burada istehsal olunan məhsullar ölkəmizin digər bölgələri ilə yanaşı, Ukrayna, Rusiya, Birləşmiş Ərəb Əmirlikləri və Çinə də ixrac olunur.

"Gəmiqaya Mebel Fabriki" MMC-də də olan səfirə məlumat verilib ki, daxili bazarı yüksəkkeyfiyyətli məhsullarla təmin edən müəssisədə Almaniya, İtaliya və Türkiyədən alınmış müasir texnoloji avadanlıq quraşdırılıb, müxtəlif çeşiddə məhsul istehsalı üçün geniş imkanlar yaradılıb. Burada ağac profilli qapı və pəncərələr, modern və klassik üslubda dizayn edilmiş mebellər, sosial və inzibati binalar üçün müxtəlif avadanlıq istehsal edilməklə yanaşı, dizayn-dekorasiya xidmətləri də göstərilir.

Duzdağ Fizioterapiya Mərkəzinə gələn diplomata bu səhiyyə müəssisəsi barədə ətraflı məlumat verilib. Müalicə turizminin inkişafı baxımından mühüm əhəmiyyət daşıyan xəstəxanaya hər il dünyanın bir çox ölkələrindən minlərlə insan müraciət edir.

İsveçrə Konfederasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Muriel Peneveyrenin Naxçıvan Muxtar Respublikasına səfəri başa çatıb.

**Tural AĞAYEV**



Mətbu startap layihələri

# Muxtar respublikanın ərazisi dağ-piyada turizmi üçün unikal imkanlara malikdir

***Naxçıvan Muxtar Respublikasının özünəməxsus coğrafi zənginliklərə malik olması bu qədim diyarda müxtəlif turizm növlərinin inkişaf etdirilməsinə şərait yaradır. Xüsusilə əzəmətli təbiətin bizə bəxş etdiyi nadir landşaft tipləri, ayrı-ayrı bölgələrin təkrarolunmaz gözəlliyi "şəhərdənkənar turizm"in inkişafı üçün yeni imkanlar açır.***

Bu gün muxtar respublikamızın yerləşdiyi coğrafi ərazini turizm perspektivliyi baxımından təhlil etsək, ilk növbədə, landşaft turizminin üzərində dayanacağıq. Landşaft turizmi isə hazırda bütün dünyada daha çox piyada və dağ turizminin inkişaf etdirilməsi üzərində qurulur. Turizmin bu növləri haqqında oxucularımıza ötən yazılarımızda bəhs etmişdik. Ancaq mövzuya yenidən müraciət etməyimizin bir səbəbi də bu turizm istiqamətlərinin inkişaf etdirilməsi üçün muxtar respublikanın geniş təbii imkanlara malik olmasıdır. Bu gün bütün dünyada piyada və dağ turizmi sürətlə inkişaf edir. Statistikaya görə, hazırda dünya turizm bazarının 10 faizindən çoxunu ekstremal turizm – piyada və dağ turizmi tutur və bu faiz ildən-ilə yüksəlməkdədir.

Hamımıza məlum olduğu kimi, muxtar respublikamızın coğrafi ərazilərinin böyük bir hissəsini dağlıq və dağətəyi ərazilər, nisbətən düzəngahlar təşkil edir. Bu ərazilərdə yüzlərlə təbiət abidələri, mineral bulaqlar, tarixi tikililər və arxeoloji obyektlər yerləşir. Hazırda muxtar respublika ərazisinin 27 faizi xüsusi mühafizə olunan təbiət əraziləridir. Eyni zamanda təbiətin mühafizəsi sahəsində həyata keçirilən tədbirlər bu qədim Azərbaycan diyarının daha da gözəlləşməsinə, təbiətinin zənginləşməsinə, flora və fauna növlərinin sürətlə artmasına gətirib çıxarıb. Naxçıvanın bu cür təbii gözəlliklərini fiziki olaraq görməyin ən yaxşı yolu isə təbii ki, burada piyada və dağ turizminin inkişaf etdirilməsidir. Bəs piyada və dağ turizminin digər turizm növlərindən fərqi və dünyada bu qədər geniş miqyasda yayılmasının səbəbi nədir?

İlk olaraq piyada turizmindən bəhs edək. Piyada turizmi istənilən yaşda insanın psixoloji olaraq emosiyalarına və fiziki aləminə müsbət təsir edir, həmçinin insanda dözüm, iradə, nizam-intizam, komandada işləmək bacarığı kimi keyfiyyətlərin formalaşmasına şərait yaradır. Piyada turizmi həm də qeyri-formal ünsiyyət forması kimi çıxış edir. Bu turizm növü ilə məşğul olan insan ətraf mühitlə birgə yaşayış qaydalarına, turizm texnikasının vərdişlərinə yiyələnir. O, piyada yürüşlərdə təbiətə qayğı ilə yanaşmağı, ekstremal situasiyaların öhdəsindən gəlməyi, zərərçəkənlərə ilk tibbi yardım göstərməyi öyrənir.

Digər tərəfdən belə turizm növünə üstünlük verənlər, adətən, macərapərəst olurlar. Macərapərəstlər isə daim təbiətdə maraqlı bir şey axtarmağa, ona sevgi ilə yanaşmağa meyilli olur, təbii gözəlliklərdən zövq almağı bacarırlar. Piyada turizminin üstün cəhətlərindən biri də odur ki, bu turizm növü yerli sakinlərin, xüsusilə yeniyetmə və gənclərin yaşadıqları bölgənin təbii coğrafiyasını praktik olaraq öyrənmək və təbliğ etmək baxımından mühüm əhəmiyyət daşıyır. Son onillikdə dünyada Skandinaviya yürüşü ilə məşğul olanların sayının da artdığını nəzərə alsaq, piyada turizminin necə sürətlə inkişaf etdiyinin bir daha şahidi olarıq.

Dağ turizmi isə piyada turizminə ən yaxın olan bir turizm növüdür. Dağ turizmi dünyada dağlıq ərazilərdə turizmin inkişaf etdirilməsi üçün təklif olunan istiqamətlərdən biridir. Bunu da xatırlatmaqda fayda var ki, dağ turizmi alpinizmlə məşğul olmaq demək deyil. Onun alpinizmlə fərqli cəhətlərindən biri odur ki, turistlər alpinistlərdən fərqli olaraq hər hansı dağ zirvəsini fəth etməyi qarşılarına məqsəd qoymurlar. Onlar üçün dağlıq ərazilərə gəzinti xarakterli səyahətlər, çətin yol şərtlərinə dözümlülük, səyyar çadırlarda gecələmək daha çox ön planda olur. Bu turizm növünün inkişafında da dağ turist düşərgələrində təlim keçmiş fiziki, nəzəri və praktik cəhətdən püxtələşmiş kadrların hazırlanmasına ehtiyac var. Ekstremal turizmin bir növü kimi dağ turizmi özündə müəyyən risk və təhlükələr daşısa da, nəticə etibarilə, bu, bir çoxları üçün əsrarəngiz istirahət deməkdir.





Bütün bu xüsusiyyətlərinə görə Kiçik Qafqaz dağlarının əhatəsində olan Naxçıvan Muxtar Respublikasının ərazisi turistlər üçün regionda ən maraqlı coğrafi ərazilərdən biridir. Buradakı mövcud bölgələrin hər biri ayrılıqda dağlıq ərazilərə malikdir. Bu əraziləri bir-biri ilə əlaqələndirəcək yeni dağ-piyada turizm marşrutlarının işlənilməsinin, düşünürük ki, zamanı gəlib çatıb. İstər piyada turizmi və ultramarafon üçün patikaların, istərsə də dağlıq və nisbətən düzəngah vadiləri əhatə edəcək veloyürüşlərin təşkili üçün təbiətin bizə bəxş etdiyi bu unikal imkanlardan yararlanmalıyıq. Uzağa getməyək, qardaş Türkiyə Respublikasının Kapadokya bölgəsi bir neçə il bundan əvvələdək turistləri yalnız şiş qayalıqları ilə cəlb edirdisə, bu gün artıq həmin bölgə dünyamiqyaslı ultramarafonların (ultramarafonlar normal marafonlardan fərqli olaraq həm də dağlıq və səhralıq ərazilərdə keçirilir), beynəlxalq dağ-velosiped yarışlarının keçirildiyi məkan kimi qəbul olunur. Bir kiçik məqamı da vurğulamaq istərdik. Bəzən dağ-piyada turizmindən bəhs edərkən muxtar respublikanın quru iqlim şərtlərinin bu cür layihələrin həyata keçirilməsində maneələr yaratdığını düşünənlər də var. Amma bu, əsla belə deyil. Məsələn, bu gün inkişaf etmiş ölkələrin hər birində geniş yayılmış ultramarafon yarışlarının çətin şərtlər çərçivəsində keçirilməsi daha çox arzuolunandır. Buna görədir ki, hər il ənənəvi olaraq Kaliforniyanın (ABŞ) "Ölüm vadisi"ndə müsbət 50 dərəcədən yuxarı temperaturda təşkil olunan "Badwater" ultramarafonu (215 kilometr) dünyanın ən güclü ultramarafonçularını bir araya toplayır. Dayanıqlılıq, səbir, yüksək dərəcədə istiliyə məruz qalan dağlıq və səhralıq ərazilər hərəkətdə olan insan orqanizminin gücünü ortaya qoymaqla yanaşı, çılğınlıq sevən turistlərin cəlbi üçün də ideal məkanlardan sayılır. Demək istədiyimiz odur ki, Naxçıvanın təbii imkanlarını qiymətləndirmək, bu imkanlardan səmərəli və uzunmüddətli istifadə etməklə yeni uğurlara nail ola bilərik.

Qeyd edək ki, piyada-dağ turizmi ölkəmizdə yeni formalaşan turizm sahələrindən biridir. Bir zamanlar məhdud alpinist kütləsindən başqa heç bir cəlbediciliyi olmayan dağlıq ərazilər bu gün artıq turizmdə yeni istiqamətləri ortaya qoyur. Təbii ki, digər sahələrdə olduğu kimi, dağ və piyada turizminin inkişafında da bu istiqamətlər üzrə bələdçilərin hazırlanmasına ehtiyac var. Düşünürük ki, dünyada piyada-dağ turizminin inkişaf dairəsi ilbəil daha da genişlənir. Bunun da səbəbləri var. Səbəblərdən biri odur ki, bütün dünyada şəhərləşmə prosesi ildən-ilə daha da sürətlənir. Yəni bütün ölkələrdə şəhərlərə böyük axın var. Rusiyada nəşr olunan "Elm və həyat" jurnalının məlumatına görə, hazırda dünya əhalisinin 55 faizdən çoxu şəhərlərdə yaşayır. 2050-ci ilədək isə bu rəqəmin 70 faiz olacağı gözlənilir. Ancaq elə ölkələr də var ki, orada əhalinin 70-80 faizi şəhərlərdə yaşayır. Beynəlxalq statistikaya görə, hazırda dünyada turist axınının 80 faizdən çoxunu da elə şəhərlərdə yaşayanlar təşkil edir. Bunun da bir çox səbəbləri var. Şəhərlərdə iş imkanlarının böyük olması səbəbindən qazancın da çox olması, kənd yerlərində yay mövsümü ərzində təsərrüfat işlərinin çoxluğu və sair səbəblər şəhərdə yaşayanların daha çox gəzintiyə zaman ayırmaları ilə nəticələnir ki, bu da sonda həmin insanların şəhərdənkənar yerlərə – təbiətlə birbaşa təmasın yarandığı bölgələrə üz tutmalarına imkan verir. Muxtar respublikaya gələn turistlər arasında sorğu aparsaq, biz də onların çoxunun fərqli şəhərlərdə yaşadığının şahidi olacağıq. Şəhərdə yaşayanların isə daim təbiətə üz tutduqlarını hər birimiz bilirik.

Digər tərəfdən dağ və piyada turizmi sağlamlıq baxımından çox faydalıdır. Həkimlər, demək olar ki, bütün pasiyentlərinə fiziki imkanları yetərlidirsə, gəzməyi, təbiət qoynunda dincəlməyi məsləhət görürlər. O ki qaldı idmançılara, alpinistlər, qayayadırmananlar, ultramarafonçular və digərləri hər zaman fərqli yerlərdə olmağı sevirlər. Bütün bu tərəfləri nəzərə alaraq deyə bilərik ki, dağ-piyada turizmi yaxın gələcəkdə daha da populyarlaşacaq.

✍ **Səbuhi HƏSƏNOV**

# Vakant həkim və orta tibb işçisi yerləri üzrə əmək yarmarkası keçirilib



***Dünən Naxçıvan Muxtar Respublikası Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin səhiyyə müəssisələrindəki vakant həkim və orta tibb işçisi yerləri üzrə birgə əmək yarmarkası keçirilib.***

Səhiyyə naziri Niyazi Novruzov tədbiri giriş sözü ilə açaraq səhiyyə sistemində aparılan quruculuq işlərindən, həyata keçirilən islahatlardan danışıb.

Vurğulanıb ki, səhiyyə sistemində həyata keçirilən digər tədbirlər kimi muxtar respublikada tibbi kadrların hazırlanması da diqqətdə saxlanılır. Naxçıvan Dövlət Universitetində ali təhsilli, Naxçıvan Tibb Kollecində isə orta ixtisas təhsilli tibbi kadrların hazırlanması üçün lazımi şərait mövcuddur. Həmin təhsil müəssisələrindəki müvafiq ixtisasların Səhiyyə Nazirliyinə hamiliyə verilməsi nəticəsində qarşılıqlı əlaqələr daha da genişlənib, yüksəkixtisaslı kadrların hazırlanması üçün lazımi işlər görülüb.

Qeyd olunub ki, səhiyyə müəssisələrinin tibbi kadrlara olan tələbatını ödəmək, eləcə də muxtar respublikada hazırlanan ali və orta ixtisas təhsilli kadrların işlə təminatı məqsədilə hər il tibb işçilərinin əmək yarmarkası keçirilir. Tibb işçiləri üçün muxtar respublikada bütün zəruri şərait yaradılıb. Kənd yerlərindəki səhiyyə müəssisələrində yeni əmək fəaliyyətinə başlayan gənc mütəxəssislər üçün bir sıra güzəştlər və stimullaşdırıcı tədbirlər müəyyənləşdirilib.

Səhiyyə naziri gənc kadrların əmək yarmarkasında fəal iştirak edəcəklərinə əminliyini bildirib, onlara əmək fəaliyyətlərində uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev bildirib ki, əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi məqsədilə müəssisə və təşkilatlarda mövcud olan boş iş yerlərinin hər ay toplanması, müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbatın müəyyənləşdirilməsi, buna uyğun olaraq keçirilən əmək yarmarkaları gənc kadrların işlə təminatında şəffaflığa şərait yaradıb.

Naxçıvan Dövlət Universitetinin Müalicə işi ixtisası üzrə 2019-cu il məzunu, işaxtaran Bəyim Mahmudova gənc kadrların işlə təminatında əmək yarmarkalarının əhəmiyyətindən danışıb, işəgötürənlər tərəfindən yaradılan şəraitə görə minnətdarlığını bildirib.

Sonra işaxtaran ali və orta ixtisas təhsilli məzunlar Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində təşkil olunmuş əmək yarmarkasında iştirak ediblər.

Yarmarkada Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin strukturundakı səhiyyə müəssisələri də daxil olmaqla, 630,5 vakant yer, o cümlədən 503 həkim, 127,5 orta tibb işçisi yeri təklif edilib, işaxtaranları maraqlandıran suallar cavablandırılıb.

Gün ərzində davam edən əmək yarmarkasında 18 həkim, 37 orta tibb işçisi işə göndəriş alıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***14 avqust-4 sentyabr 2019-cu il tarixlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən keçirilən imtahanlarda müvafiq keçid balını toplayaraq işə qəbul edilən gənc müəllimlərlə Təhsil Nazirliyində görüş olub.***

# Gənc müəllimlərlə görüş olub



Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov bildirib ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 14 aprel 2018-ci il tarixli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət ümumi təhsil və ilk peşə ixtisas təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"na uyğun olaraq pedaqoji profilli ixtisasları bitirmiş gənclər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən keçirilən müsabiqə yolu ilə işə qəbul olunur. Ötən tədris ilindən etibarən təşkil edilən bu müsabiqələr muxtar respublikada gənclərin işlə təmin olunmasında mühüm rol oynayır.

Diqqətə çatdırılıb ki, Təhsil Nazirliyi tərəfindən muxtar respublikanın ümumtəhsil məktəblərində ixtisaslar üzrə, ümumilikdə, 302 vakant iş yeri müəyyənləşdirilib, müsabiqəyə həmin vakant yerləri tutmaq üçün 599 nəfər sənəd təqdim edib. 14 avqust-4 sentyabr 2019-cu il tarixlərdə keçirilmiş test imtahanlarının nəticələrinə əsasən bu gün 95 müəllim işlə təmin olunur. Onlardan 41 nəfəri ucqar dağ kəndində yerləşən ümumtəhsil məktəbini seçib.

Sonra Təhsil naziri yeni dərs ili münasibətilə gənc müəllimləri təbrik edib, onlara təhsildə uğurlar arzulayıb.

Gənc müəllimlər adından çıxış edən Fatma Kərimova həyata keçirilən uğurlu təhsil siyasətindən danışıb, fəaliyyətləri üçün yaradılan şəraitə və gənclərə göstərilən yüksək qayğıya görə minnətdarlığını bildirib.

Sonda Təhsil Nazirliyi tərəfindən gənc müəllimlərə metodik vəsaitlər və "Pedaqoji fikir tarixindən" kitabı hədiyyə olunub və müəllimlərin 3 günlük seminarına start verilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## “Naxçıvan dastanı” miniatür kitabının təqdimatı olub

*Sentyabrın 12-də Naxçıvan Muxtar Respublikası Kitabxanasında Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Folklorşünaslıq şöbəsinin müdiri, şair Elxan Yurdoğlunun Naxçıvan Muxtar Respublikasının 95 illiyinə həsr etdiyi “Naxçıvan dastanı” miniatür kitabının təqdimat mərasimi keçirilmişdir.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Ülvi Hüseynli çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində muxtar respublikada Yazıçılar Birliyinin fəaliyyəti, o cümlədən ədəbiyyatımızın və mədəniyyətimizin inkişafı üçün hər cür şərait yaradılmışdır. Bunun nəticəsidir ki, çap olunmuş əsərlərin həm sayı, həm də keyfiyyəti xeyli artıb. Naxçıvanın tarixinə və müasir inkişafına həsr olunmuş onlarla bədii nümunələr yaradılmışdır. Son illər şair və yazıçıların, filoloq alimlərin minə yaxın kitabı nəşr olunmuş, ədəbi almanaxlar oxucuların ixtiyarına verilmişdir. Muxtar respublikada ədəbiyyata göstərilən qayğı təkcə kitab çapı ilə məhdudlaşmır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə “Oxunması zəruri olan kitabların Siyahısı”nın təsdiq edilməsi, həmin kitabların “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində çap olunması, ümumtəhsil məktəblərində və kitabxanalarda onlardan ibarət guşələrin yaradılması Naxçıvanda kitab mütaliəsinin inkişaf etdirilməsinə mühüm töhfə vermişdir.

Muxtar respublikada nəşriyyat işinin günün tələbləri səviyyəsində qurulması da şair və yazıçılar üçün yaradılan hərtərəfli yaradıcılıq şəraitinin daha bir ifadəsidir. Ali Məclis Sədrinin qayğısı ilə “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi müasir



çap texnologiyaları ilə təchiz olunmuş, ən müasir çap avadanlıqları quraşdırılmışdır. Bütün növ kitabların hazırlanmasında dünyada tətbiq olunan ən müasir çap avadanlıqlarından və texnologiyalarından istifadə olunur. Yüksək poliqrafik keyfiyyətə malik olan bu avadanlıqlar muxtar respublikada nəşriyyat işinin keyfiyyətini xeyli yaxşılaşdırmışdır. Şair Elxan Yurdoğlunun “Naxçıvan dastanı” poeması da “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində ilk dəfə miniatür kitab şəklində yığılmışdır.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar çıxışında vurğulayıb ki, şair Elxan Yurdoğlunun “Naxçıvan dastanı” əsəri “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində çapdan çıxmış ilk miniatür kitabdır. Sevindirici haldır ki, nəşriyyat artıq bu cür nəfis tərtibatla miniatür kitablar çap etmək imkanına malikdir. “Naxçıvan dastanı” əsəri qədim diyarımıza sevginin, tükənməz məhəbbətin bariz ifadəsi kimi ərsəyə gəlib. Yaşı minilliklərlə ölçülən qədim diyarımızın hər daşı, hər qayası poemada övlad sevgisi ilə tərənnüm olunur. Şairin yurd, Vətən sevgisi poemanın hər bir sətrində özünü bariz şəkildə göstərir. Naxçıvanın keçmişi qürurla xatırlandığı kimi, bugünkü inkişafı da poetik dillə vəsf olunur. Asim Yadigar muxtar respublikada yaradıcı insanlar üçün yaradılan hərtərəfli şəraitə görə şair, yazıçı və ziyalılar adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

AMEA Naxçıvan Bölməsinin Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Ramiz Qasımov çıxışında bildirib ki, müəllif poemada bu torpağın hər daşını sözə çevirmək istəyir. Söz isə əbədidir. Minillikləri yorub yolda qoyan qədim diyarımızın hər daşı, hər qayası, hər tarixi abidəsi də söz kimi əbədidir. Buna görə də müəllif əsərdə Naxçıvanın tarixi keçmişini vərəqlədikcə Gəmiqaya ucalığından, Əshabi-Kəhf müqəddəsliyindən ilhamla söhbət açır. Eyni zamanda qədim diyarımızın zəngin tarixindən söhbət açan şair bu tarixin yetirdiyi şəxsiyyətləri də unutmur. Naxçıvanın hüsnünə min bir bəzək vuran Əcəmi də, Baba Nemətullah Naxçıvani də, Heyran xanım da, Cəlil də, Cavid də bu torpağın yaddaşında iz qoyan insanlar kimi anılır. Naxçıvanın bu günündən söhbət açanda isə müəllif son illərdə bu diyarda baş verən müsbət dəyişiklikləri özünəməxsus poeziya dili ilə vəsf edir. Beləliklə, şair yurda bağlılığını, sevgisini, bu diyarın oğlu kimi əbədi ömrünü də elə bu torpaqda görür.

Miniatür kitabın tərtibatçısı, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin əməkdaşı Esmira Heydərova kitabın ərsəyə gəlməsində kollektivin əməyindən danışıb və diqqətə çatdırıb ki, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində ilk dəfə hazırlanmış “Naxçıvan dastanı” miniatür kitabının təqdimatının keçirilməsi muxtar respublikada yaradıcı insanlara göstərilən diqqətin daha bir ifadəsidir. Miniatür kitablar əl əməyi və zərif iş nəticəsində ərsəyə gəlir. Bu gün “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində kitab çapı sahəsində istənilən sifarişləri qəbul




və icra etmək mümkündür. Miniatür kitab çapı ilə bağlı təcrübəmi həmkarlarıma da öyrədəcək, nəşriyyatda bu sahədə üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirəcəyik.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, miniatür kitabın rəssamı Ülviyyə Həmzəyeva vurğulayıb ki, bu gün muxtar respublikamızda yaradıcı insanlar hərtərəfli diqqət və qayğı ilə əhatə olunub, fəaliyyətləri üçün lazımi şərait yaradılıb. “Naxçıvan dastanı” miniatür kitabının təqdimatının keçirilməsi də bunun bariz nümunəsidir. Kitabın üz qabığında Elxan Yurdoğlunun portretinin müəllifi olduğunu bildirən Ülviyyə Həmzəyeva qeyd edib ki, bu, mənim eksperimental əsərlərimdən biridir və həmin portret şairin “Ulduz çoxluğu qədər təklik” adlı şeir toplusu kitabından sonra düşüncələrimdə formalaşdırdığım ideya əsasında yarandı. Həmin portretin muxtar respublikada ilk dəfə nəşr olunan miniatür kitabın üz qabığında yer alması məni də sevindirdi.

Ülviyyə Həmzəyeva muxtar respublikada yaradıcı insanlara göstərilən qayğıya görə minnətdarlığını bildirib.

“Naxçıvan dastanı” kitabının müəllifi, şair Elxan Yurdoğlu muxtar respublikada ədəbi mühitin inkişafına, yaradıcı gəncliyə göstərilən diqqət və qayğıya, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində yaradılmış hərtərəfli şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin əməkdaşı Aytən Cəfərova və müəllifin valideyni Qadir Məmmədov da çıxış etmişlər.

Sonra tədbir iştirakçıları “Naxçıvan dastanı” miniatür kitabının sərgisi ilə tanış olmuşlar.

**Səbuhi HƏSƏNOV**

# Naxçıvan dastanı

*(poema)*

Sanki güllərini özüm əkmişəm,
Sanki ağacların bağbanı mənəm.
Sanki gecələrin ulduz topası,
Sanki səhərlərin ağ danı mənəm.

Bu div dünyamızın cırtdan şəhəri
Divlər dünyasına tutub səfəri.
İlk addımı – tarixin ilk sözüdür.
Altı-üstü tarixin lap özüdür.

Bu tarix şəhərin, çağdaş şəhərin,
Hər daşı bir hərf, hər dağı kitab.
Oxu, sənin üçün qaranlıq varsa,
Soruş dünənindən – dünəni cavab.

Burda hər qarışda saxsı parçası,
Hər addım başında əsrlər gizli.
Burda əcdadların daş sirlərinə
Daşlar damğalanmış sadiq kənizdi.

Burda babalarım dastan bağlayıb,
Burda nənələrim nağıl yaşdadı.
Tutsan damarını görəcəksən ki,
Sənə bir təzə bir nağıl başladı.
Bayatı çağırdı, ağı söylədi,
Namərd qarğışladı, mərd alqışladı.

Söz burda qızıldan, zərdən bahadı,
Söz burda qanundu – hökmü qətidir.
Söz Qorqud qopuzu, Koroğlu sazı,
Dünənin sabaha əmanətidir.
Mənim can nəfəsim,
mənim can yurdum
Sözlə qol-boyundu tufandan bəri.
Sirrini daşlara yazıb saxlayır,
Nuh tufanı dinib, yatandan bəri.

Hər daş bir əsərdi Gəmiqayada,
Tarix kitabının vərəqi daşdı.
Burda tarix dərsim daş üstündədi,
Daşdı deyib keçmə, hər daş yad
daşdı.

Oxu Nuh babamın əlifbasını –
Göy ayrı, yer ayrı, su ayrı yazı.
Ətrafa yayılmış daşları oxu –
O ayrı yazıdı, bu ayrı yazı.

Günəşi, gəmini oxu daşlardan,
Dərdini, qəmini oxu daşlardan.



Gör nələr yaşayıb, nədən danışır,
Hər daş ayrı əfsanədən danışır.

Ov edib – daşlara həkk edib onu,
Ox atıb – daşlara həkk edib onu.
Tilsimdi bu daşlar, sirdi bu daşlar,
Ocaqdı bu daşlar, pirdi bu daşlar.

Tarix qibləsinə namaza dursan,
Hər daş bir möhürdü –
alnını vursan;
Səcdədə bu daşlar ürəyin olar,
Duaya çevrilər, diləyin olar.
Tarixin Məkkəsi Gəmiqayadır,
Tarixin Kəbəsi bu qayalıqlar.
Kəbənin bir qara daşı vardırsa,
Buranın yüzlərlə qara daşı var.

Qaranquş yaylağında
Daşlar dilə gəldilər.
Elə bil ki, şeirimə
Bilə-bilə gəldilər.

Hər daşı dinlədim,
Hər daş danışdı.
Sanki bacım dindi,
Qardaş danışdı.

Dedilər burdakı yer adlarını
Bir-bir təkrar elə, oxunar tarix.
Bu günün müasir hanası üstə
Min bir çeşnilərlə toxunar tarix.

Gəmiqaya – Gəmi və qaya,
Qaranquş yaylağı.
Nəbi yurdu Nuh nəbinin
İlk məskəni, ilk oylağı.

Gəmiqaya – mənim tarix dərsliyim,
Buradan başlanır müqəddəsliyim.

Gəlib Duzdağında duzu tapmışam,
Nuhdur müəllimi tarix dərsimin.
İzinə düşərək Nuh Peyğəmbərin
Sirrini açmışam neçə tilsimin.

Duzun ki, dadına baxır adamlar,
Yaxından da bir çay axır;
adamlar
Qərara gəlirlər düşünüb bir də,
Yurd salıb yaxında düzən bir yerdə
Ocaq qalayırlar, od qalayırlar,
Neçə minilləri qovalayırlar.
Beləcə insanlar yaxın olurlar,
Tez-tez qarşılaşır, xəbərləşirlər.
Tarixən belədir, əvvəl yurd salır,
Sonra böyüyürlər, şəhərləşirlər.

Nuhçıxan şəhərim belə yaranıb,
Naxçıvan şəhərim belə yaranıb.

Dünyanı bəzəyən Nəqşi-cahanım,
Canməkan şəhərim belə yaranıb.

O vaxtdan ən azı beş min il keçir,
Nə bilək, bəlkə beş min nəsil keçir.

Zaman at belində illəri qovur,
Nə bir nəfəs dərir, nə alır hovur.
Udur əjdahatək illəri bir-bir,
Zaman nə tez keçir, tarix də bilmir.

Amma ki, tarixin qələmi iti,
Tarixin varağı qara torpaqdır.
Zaman yaxşı bilir, gələn nəsillər
Tarixi torpaqdan oxuyacaqdır.

Qazdım bu torpağın gen sinəsini,
Qat-qat vərəqlədim,
lay-lay axtardım.
Oxudum tapılan hər kitabəni,
Düz beşminillik bir tarixə vardım.

Cəsarət verdi mənə
Mənim torpaq kimliyim,
Mənim daş ucalığım.
Fəxarət verdi mənə
Mənim qədim şəhərim –
Mənim baş ucalığım.

Zamanla qocaldım,
Zamanla ucaldım.
Zamandan güc aldım,
Zamandan bac aldım.
Gəldim çıxdım bu günə,
Bugünkü toy-düyünə.
Mənə qədər nə çox yollar
yormusan,
Dünənin şərəfli kitab kimidir.
Hamı Vətəninin keçdiyi yolu
Diqqətlə oxuyub öyrənməlidir.

Boşuna deməyib müdrik babalar,
Onların sözündə min bir hikmət var.
Oğul, keçmişini bilməyənlərin,
Başqaları qurar gələcəyini.
Sən də keçmişini yaxşı öyrən ki,
Başqası idarə etməsin səni.

Yığdım söz heybəmə düşüncələri
Keçmişi dolandım bir də yenidən.
Naxçıvan şəhərim müdrik qocatək
Danışdı tarixin gizlinlərindən.

Bir də ayıldım ki, mağaradayam,
Yanımda oturub yeddi kimsənə.
Sual baxışlarla soruşdular ki,
– Söylə yerimizi dedi kim sənə?

– Mən söz səyyahıyam,
ünvanım tarix,
Gəzirəm xalqımın keçdiyi yolu.
Sizdən də xəbərim vardı, amma ki,
Sizin hekayəniz sirlərlə dolu.

Danışın əsrarlı taleyinizdən,
Bizə maraqlıdır hər bir sözünüz.
Danışın Dağyunus kimdir, nəçidir,
Nələr yaşadınız, nələr gördünüz?

Bu yeddi nəfərin içindən biri,
Dedi olanları, hər necə olub.
Onlar danışdıqca heyrətlənirdim,
Dostluğun axırı gör necə olub?

– Neçə yüz il əvvəl iki dost idik,
Çobanlıq edərdik dərd-qəmdən uzaq.
Bir tikəmiz olsa, yarı bölərdik,
Dərdi-sərimizə olmuşduq ortaq.

Ardı 4-cü səhifədə

Hamı bilirdi ki, Təmleyxa ilə
Yunusun birliyi dağı tərpədər.
Amma fələk elə oyun oynadı,
Xoşbəxt ömrümüzdən olduq dərbədər.

Bir gün yuxu gördüm,
səhər oyandım,
Yunusa danışdım yuxumu bir-bir.
Gördüm ki, üstündə durduğum daşın
Altı qızıl dolu bir xəzinədir.

Durub öz-özünə düşünən dostum
Gördüyüm yuxunu gerçəyə yozmuş.
Bir gün təkbaşına gələrək ora,
O daşı qaldırıb altını qazmış.
Mən necə görmüşəm elə də olur,
Yunus daş altından xəzinə tapır.
Yığır xurcununa burda nə varsa,
Kasıb komasına dördnala çapır.

Həmin gündən sonra dəyişir Yunus,
Çobanlıq etməyi tamam tərgidir.
Ötən günlərini yaddan çıxarıb
Dostu Təmleyxanı atır, tərk edir.

Gün-gündən varlanır, artır şöhrəti,
Yayılır ad-sanı bütün hər yana.
Toy edir, padşahın qızını alır,
Sonra da göz tikir şahlıq taxtına.

Bu hələ nədir ki, günlər keçdikcə,
Çatır arzusuna şah olur bir gün.
Haqqı-ədaləti vecinə almır,
Xalq onun zülmündən bezir büsbütün.
Yadına salaraq çoban dostunu,
Bir səhər yanına çağırır onu.
Təmleyxanı vəkil təyin eyləyir,
– Heç vaxt unutmadım dostumu, –
deyir.
Yunus şah olsa da, düşünmür xalqı,
Zalımlıq eyləyir, unudur haqqı.
Ürəklər yandırır, sinə dağlayır,
Yerlər haray çəkir, göylər ağlayır.

Xalqın ürəyinə dağ çəkdiyindən,
Xalq ona ad qoyur: Dağyunus, –
deyir.
Şahlıq eləsə də həmin ölkədə,
Ondan bir kimsəyə gəlməyir xeyir.

Bir gün də Allahlıq eşqinə düşür,
Buranın Allahı mənəm,– söyləyir.
Kim qəbul etməsə boynu vurulsun,
Cəlladlara bu cür əmr eyləyir.
Hər gün öldürülür yüzlərlə adam,
Bu zülmə dözməyir vəkil Təmleyxa.
Altı dostu ilə şəhərdən qaçır,
Sığınır mağara olan bir dağa.

Bir də yanlarında sadiq bir köpək,
Düz üç yüz doqquz il yuxu yatırlar.
Bir gün oyananda ərzaq almaqçün
Birini şəhərə yola salırlar.

Yola düşür şəhərə
Nə lazımdırsa alır.
Verdiyi pulu görən
Baqqal heyrətdə qalır.

Görür qərib adamda
Bu pullardan doludur.
Bu, üç yüz il əvvəlki
Diqyanusun puludur.

Adam geri qayıdır,
Danışır olanları.
Beləcə anlayırlar
Yuxu tutub onları.

Üç əsrdən çox yatıb
Ayılıblar yenicə.
Allaha üz tutaraq
Yalvarırlar beləcə:

– Tanrı, bu mağarada
Bizi sən qorumusan.
Yenidən yuxuya ver
Uyuyaq sonsuzacan.

Həmin mağara əhli –
Burdakı yeddi adam
O gündən sonsuzadək
Yatırlar oyanmadan.

İllər, aylar dolanır,
Keçib gedir əsrlər.
Bu mağara əhlini
Unutmayır nəsillər.

Hamı ziyarət üçün
Gəlib-gedirlər bura.
Əshabi-Kəhf adlanır
Beləcə bu mağara.

Bu haqda bəhs eyləyib
Hətta "Qurani-Kərim".
Min illər bundan əvvəl
Olanı yazdı şeirim.

Oxu Kəhf surəsini,
Əshabi-Kəhfi düşün.
Allah öz kitabında
Həkk eləyib büsbütün
Bu mağara əhlinin
Nələr yaşadığını.
Həmin illərdən bəri
Əshabi-Kəhf dağını
Hamı müqəddəs sayır,
Ziyarətə başlayır.

Mənim doğma yurdum öz ağuşunda
Yeddi kimsənəyə açıbdır qucaq.
Kimdən soruşsanız Əshabi-Kəhfi
Deyər Naxçıvanda müqəddəs ocaq.
Axtarsan bu xalqın söz boxçasını
Bu yer haqda əfsanələr çıxacaq.
İnamlar, inanclar, əsatir, nağıl,
Bayatılar – nələr-nələr çıxacaq.

"Asəfkəfin daşıyam,
Qızıl üzük qaşıyam.
Siz Allah yer eyləyin,
Mən qərib yoldaşıyam".

"Asəfkəf ocağında,
Şam yanar bucağında.
Burdan bir gəlin keçdi,
Ağ oğlan qucağında".

"Asəfkəf ocaq-ocaq,
Orda şamlar yanacaq.
Qəm yemə, dəli könlüm,
Sən dediyin olacaq".

"Asəfkəf ocaq yeri,
Pir yeri, ocaq yeri.
Yeddi qərib adamın
Ömürlük qucaq yeri".

"Əyandır sirrim sənə,
Sirri açdı kim sənə.
Min illərdir burada
Yatır yeddi kimsənə".

"Asəfkəf mağarası,
Mağara dağ arası.
Hər sirr bir qara daşdı,
Zamanla ağarası".

Xalqın yaddaşından sözlər süzülər,
İnci-inci tariximə düzülər.
Yolumun üstündə dayanan dağlar,
Dindirsəm tarixdən danışacaqlar.

Üzü Ağrıdağdan Qapıçığadək,
Oylağı olubdur Dədəm Qorqudun.
Nə vaxt ki, dağlardan sərin meh əsir,
Səsini duyuram qopuzun, udun.
Ozanlar dilində dastan olmuşam,
Aşıq havasına köklənib ruhum.
Xəyala dalmışam "Ruhani" üstə,
"Cəngi" çalınanda çəkilib yuxum.

Mən yallı tutanda Şərur düzündə,
Neçə gün susmazdı davul-zurnalar.
Yerdə oğul-qızım səf-səf durardı,
Qatar bağlayardı göydə durnalar.

Mənim birliyimin möhürü olub,
"Köçəri", "Urfani", "Tello", "Tənzərə".
Yorulmaq bilmədən yallı gedərdim,
"Şərili", "Qalalı" ayrı mənzərə.

Mənim xəzinəmdir hər ulu əcdad,
Mənim qazancımdır mərd övladlarım.
Zamanın önündə alnıaçığam,
Şanlı keçmişimdir dövlətim, varım.

Əlincə sərt üzlü dözüm heykəlim,
Başucalığımdır İlanlı dağım.
Qadına sevgimdir Möminə xatın,
Batabat gözəllik füsunkarlığım.
Neçə sənətkarlar, neçə dahilər,
Bu yurdun adına şərəf gətirib.
Gün-gündən yayılıb şöhrəti, şanı,
Sələflər ardınca xələf yetirib.

Babək qılıncıyla qoruyub məni,
Burda Koroğlunun nərəsi yaşar.
Gəz dörd bir tərəfi, bütün kəndlərdə,
Dəmirçioğlunun nəvəsi yaşar.

Yanıma çağırsam övladlarımı,
Başda Dədəm Qorqud qopuzla gələr.
Babək qılıncını itildib gələr,
Koroğlu at üstə toppuzla gələr.

Asta, usta gələr Memar Əcəmi,
Yetər ki, mən bircə dəfə səsləyim.
Baba Nemətullah Quranla gələr,
Gələr Heyran xanım və Qönçəbəyim.

Daş atıb qaranlıq cəhalətlərə
Gələr sərt baxışlı Eynəli Sultan.
Sidqi qoltuğunda dərs kitabları
Öyrətməyə gələr, yorulmaz bir an.

Gələr Mirzə Cəlil əlində qələm,
Cavid "Peyğəmbər"lə, Xəyyam"la
gələr.
Yığışar bir yerə oğulum, qızım,
Dünyanı titrədən əyyamla gələr.
Gələr Ordubadi, Qəmküsar, Səbri,
Kimi haraylasam, "can" deyib gələr.
Gələr Əziz Şərif, Rza Təhmasib,
Hamısı səs gələn yönə tələsər.

Araz qaysağıma layla deməyə,
Məmməd Araz gələr, susub danışar.
Onun sükutunun vahiməsindən
Araz öz içindən yanar alışar:

"Arazam, lilə bəndəm,
Bülbüləm, gülə bəndəm.
Mən burda bənd olmazdım,
Bir şirin dilə bəndəm".

"Arazım çağlar axar,
Dörd yanı bağlar, axar.
Əlim suyuna çatmaz,
Sinəmi dağlar axar".

"Arazı dağlar bəndə,
Salıbdı dağlar bəndə.
Əlim ondan üzüldü,
Qalmışam ağlar mən də".

"Araz axar gül gələr,
Ay dolanar, il gələr.
Yurduma kəm baxanın
Gözlərinə kül gələr".

"Arazın suyu qandı,
Dərdi ərşə dayandı.
O yandan bir ün gəldi,
Araz alışdı, yandı".

"Araz bəxti qaradı,
Araz qarayaradı.
Arazı qarğımayın,
Araz para-paradı".

Dayan, Araz bəxtim, Araz taleyim,
Dünyanın ən uzun sərhəddi, axma.
Dünyanın ən böyük sərhəddi, dayan,
Mənə qərib kimi həsrətlə baxma,
Çilə sularını təşnə könlümə,
Yaralı sinəmi yandırma, yaxma.

Gün gəlsin, mən sənin suyunda çimim,
Hər gün bircə dəfə o taya dəyim.
Gün gəlsin, mən sənə təzə söz qoşum,
Şeirlər oxuyum, bayatı deyim.

Araza göz süzürəm,
Sularında üzürəm.
O taylı sevgilimlə
Sahilində gəzirəm.

Araz coşub çağlamaz,
Həsrət qalan ağlamaz.
Arazın lal suları
Daha ürək dağlamaz.

Araz artıq dərd deyil,
Suları namərd deyil.
Gəl üstündən rahat keç,
Ta Araz sərhəd deyil.

Hər dərdin ən yaxşı məlhəmi zaman,
Yaşasaq görərik, ölsək görərlər.
Bəlkə də nə vaxtsa Arazın üstə
Həsrət muzeyinə divar hörərlər.
Hansı övladımı çağırsam bu gün,
Gələr, çağrışımı müqəddəs bilər.
Əminəm gələcək hamıdan qabaq
Yenə əvvəlkitək o ulu öndər.

Gələcək düşmənə sinə gərməyə,
Ömrünü xalqına həsr eləməyə.
Xalqın qürur, qeyrət rəmzi gələcək,
Xalqın döyüş ruhu, əzmi gələcək.

Gələr Günəş saçlı, göylər baxışlı,
Od alov püskürən qorxmaz çıxışlı.
Səsindən düşmənin varlığı hürkən,
Gələcək, gələcək hamıdan erkən.

Mənim dar günümdə dadıma yetən,
Dərdimə-sərimə alışan-yanan.
Onun gəlişiylə uzaqdan durub
Həsədlə baxacaq mənə bu cahan.

Mən ona anayam, o mənə övlad,
O mənim dünyaya hökm edən səsim.
Dünyada elə bir ölkə varmı ki,
Onu tanımasın, onu bilməsin.
Bu gün qazandığım hər uğurumda
Onun imzasını görəcək hamı.
Gələcək nəsillər unutmayacaq
Bu dahi insanı, dahi adamı.

Bu gün sabah üçün paslanmış kilid,
Bu gün yazılanlar sabaha açar.
Mənim söz mülkümün xiridarları
Gün gələr hər yana şəfəqlər saçar.

– Ey şair, yol gəlib Nuh əyyamından,
Gəzdin tariximi qarışbaqarış.
Çağır ilhamını, götür qələmi,
Gələn nəsillərə bu gündən danış.

Sənin yazdıqların sənin əsərin,
Ölməzlik qazansın, əbədi olsun.
Sözünün nuruna yığışsın hamı,
Şeirin Naxçıvanın məbədi olsun.
– Mənimçün şərəfdir sənin hər sözün,
Doğma Naxçıvanım, təki sən istə.
Bugünkü növrağı anlatmaq üçün,
Kərpictək qoyaram sözü söz üstə.

Ey mənim on əsr sonrakı dostum,
Düz min il sonrakı oxucum, dinlə!
Bu yazdıqlarımı oxusan bir gün,
Düşün ki, üz-üzə dayanıb sənlə.

Öz doğma yurdundan söhbət edirik,
Gül-çiçək naxışlı Naxçıvanımdan.
Düşmənimə nəzərləri sərt olan,
Dosta xoş baxışlı Naxçıvanımdan.

Gəl, mənim yurdumu birlikdə gəzək,
Danışım buralar əvvəl necəydi.
O meydan, o küçə, o dalan, o tin,
Hansı görkəmdəydi,
hansı gündəydi.

İndi gözə dəymir ürək ağrıdan,
Ürək bulandıran o mənzərələr.
Bu gün şəhərimi seyr eyləyənlər
Şair olmasa da ilhama gələr.

Mənim tarixlərə şahidlik edən
Qocaman şəhərim gəncləşir hər gün.
Hər səhər şeirimə bir misra verir,
Ruhumu oxşayır şəhər büsbütün.

Hər tərəf elə bil gül sərgisidir,
Bir də ki, yaz gələ, yağışlar yağa.
O zaman iki göz bəs etməz sənə,
Yüz göz istəyərsən durub baxmağa.

Bu gün Naxçıvanın usta memarı,
Hər tərəfə yeni naxış nəqş edir.
Onun hər qərarı, onun hər işi
Tarixə tarixi əsər bəxş edir.

Dünyanın xoşbəxti niyə olmayım,
Ruhumun şəhəri ruhuma evdi.
Mən onu dəlicə sevdiyim kimi,
Bax, o da öz şair oğlunu sevdi.

Yaz ayrı, yay ayrı, qış ayrı aləm,
Payızda rəngbərəng naxışlı xalça.
Gözəllik aşiqi, gəl qonağım ol,
Yaşa bu şəhəri, yaşa doyunca.

Öyrən istisinə, sərt soyuğuna,
Dağını, daşını, çölünü öyrən.
Öyrən ağsaqqalın, ağbirçəyinin
Folklorla yoğrulmuş dilini öyrən.

Mənim Naxçıvanım
can məkanımdır,
Ona can deyənin cavabı candır.
Baxma xəritədə ayrı salıblar,
Naxçıvan əbədi Azərbaycandır.

Ürəyim söz dolu eşq yuvasıdır,
Mizrab vur könlümə eşqlə tellənər.
Başlayar yeni bir dastan yazmağa,
Naxçıvan havası üstə dillənər.

Ey sevda şəhərim, sevgi şəhərim,
Şeirimin şah bəndi, şah bəxti şəhər.
Sən gerçək nağılım, nağıl gerçəyim,
Səni vəsf edəcəm ölənə qədər.

Gələn nəsillərə oxut şeirimi,
Yazdığım bu dastan yaddaşın olsun.
Heç nə istəmirəm səndən, sadəcə
Ölsəm qəbrim üstə bir daşın olsun!

O daşın üstündə yazdırarsan ki,
Burda şair yatır: xalqın mərd oğlu.
Mənim hər daşımı sözə çevirən,
Özü daşa dönən Elxan Yurdoğlu.

**Elxan YURDOĞLU**
***1-7 noyabr 2018-ci il***
***Naxçıvan***

## Kikboksinq üzrə muxtar respublika birinciliyi keçirilib



Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyevin xatirəsinə həsr olunan kikboksinq üzrə yeniyetmə və gənclər arasında Naxçıvan Muxtar Respublika turniri keçirilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Kikboksinq Federasiyasının birgə təşkil etdiyi turnirin keçirilməsində məqsəd bu idman növünün muxtar respublikada inkişafı, yeniyetmə və gənclər arasında təbliği, eyni zamanda Naxçıvanda fəaliyyət göstərən kikboksinq bölmələrinin və klublarının işinin təkmilləşdirilməsindən ibarət olub.

Turnirin açılış mərasimində Gənclər və İdman Nazirliyinin şöbə müdiri Taleh İbrahimov, Kikboksinq Federasiyasının sədri Xəyal Abdullayev çıxış edərək muxtar respublikada idmana və idmançılara göstərilən diqqət və qayğıdan danışıb, yarış iştirakçılarına uğurlar arzulayıblar.

Reqlamentə əsasən idmançılar 13-15 yaş qruplarında 36, 42, 47, 52, 57, 60 və +60 kiloqram, 15-17 yaş qrupunda isə 54, 63 və +71 kiloqram çəki dərəcələrində rinqə çıxıblar. Həmçinin qız idmançılar 54 kiloqram çəki dərəcəsində ən güclünü müəyyənləşdirməyə çalışıblar.

Sonda hər çəki dərəcəsində ilk 3 yeri tutan idmançılar diplom və medalla mükafatlandırılıblar.

✍ **Ceyhun MƏMMƏDOV**

### Bildiriş

1. Naxçıvan Dövlət Universitetinin rektorluğu bildirir ki, 2019-cu ildə universitetin Qiyabi şöbəsinin Biologiya, İqtisadiyyat, Mühasibat uçotu və audit, Musiqişünaslıq, Yerüstü nəqliyyat vasitələrinin mühəndisliyi, Elektroenergetika mühəndisliyi, Bədən tərbiyəsi və idman, Kitabxanaçılıq və informasiya, Hüquqşünaslıq və Tarix ixtisaslarına qəbul olunmuş I kurs tələbələrinin başlanğıc sessiyası 1 oktyabr 2019-cu il tarixdən başlayır və 15 iş günü davam edir.

2. Bütün qiyabiçi tələbələrin sessiyada iştirakı zəruridir.

**Rektorluq**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 614